# Prezident İlham Əliyevə xalqın etimadı çox yüksəkdir



*Prezident İlham Əliyevin müasir dünya reallıqlarını düzgün qiymətləndirməsi, qlobal proseslərə xalqın mənafeyinə uyğun nüfuz etmək bacarığı, respublikanı qısa zamanda bölgədə və bütövlükdə Avropa məkanında nüfuzlu dövlətə çevirməsi onun həm daxildə, həm də ölkə hüdudlarından kənarda ciddi siyasi dəstək almasına möhkəm zəmin yaratmışdır. Ən müxtəlif beynəlxalq təşkilatlar və nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğuları bunu bir daha təsdiq edir.*

ABŞ-ın müstəqil qeyri-hökumət təşkilatı "Arthur J. Finkelstein & Associates" (AJF) tərəfindən aprelin 23-29-da səsvermə yaşına çatmış 1200 azərbaycanlı arasında milli sorğu aparılıb. İctimai rəy sorğusunda 96,8 faiz respondent Azərbaycan Prezidentinə etibar etdiyini bildirib. Respondentlər dövlət başçısının fəaliyyətini "əla", yaxud "yaxşı" qiymətləndiriblər. 96,3 faiz respondent ölkə rəhbərliyinin Azərbaycanı erməni təcavüzkarlarından qoruduğunu bildirərək Azərbaycan Ordusunun cavabının səmərəliyini "əla" və ya "yaxşı" qiymətləndirib.

Rəyi soruşulanların əksəriyyəti qeyd edib ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik rayonlarının işğalı həm ölkənin, həm də ailələrin üzləşdiyi yeganə ən mühüm məsələdir. Əhalinin əksəriyyəti Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və işğal edilmiş digər rayonları Ermənistan təcavüzkarlarından azad etmək üçün istənilən və bütün, o cümlədən hərbi vasitələrdən istifadə etməyə hazırdır.

"Azərbaycanın işğal edilmiş ərazilərində baş vermiş son hadisələr sizi Azərbaycana münasibətdə daha çox, yaxud daha az vətənpərvər etdi" sualına cavabda respondentlərin 97,3 faizi "daha çox" deyə cavab verib. Rəyi soruşulanların 84,4 faizi Prezidentin və Azərbaycan hökumətinin apardığı xarici siyasəti səmərəli hesab edib.

Dağlıq Qarabağ məsələsi insanların fikirlərinə açıq-aşkar hökmranlıq etdiyi, eləcə də insanların hökumətin işğal edilmiş ərazilərdə gördüyü işlərin arxasında birləşməsinə səbəb olduğu bir vaxtda Azərbaycan xalqı iqtisadi islahatlar və sabit cəmiyyət qurmaq kimi bir sıra digər məsələlərlə bağlı hökumətə yüksək qiymət verir.

Ölkədə korrupsiya ilə mübarizəyə gəldikdə isə, azərbaycanlıların əksəriyyəti bildirir ki, hökumət əla və ya yaxşı iş görüb, lakin yenə də irəliləyiş əldə oluna bilər. "Ölkədə həyata keçirilən iqtisadi islahatların dünya iqtisadi böhranının Azərbaycana təsirinin azalmasına gətirib çıxaracağına inanırsınızmı" sualına respondentlərin 78,1 faizi "bəli" cavabını verib. Rəyi soruşulanların 91,4 faizi Azərbaycanda sosial sabitlik səviyyəsini yüksək qiymətləndirib.

Postneft mərhələsinə qədəm qoymuş Azərbaycanın yeni inkişaf mərhələsinin əsas tələbi qarşıda duran məqsədlərin yüksək səviyyəli, çoxşaxəli olması, zamanın çağırışlarına cavab verməsi ilə bağlıdır. Göründüyü kimi, ölkə həyatının bütün sahələrində qazanılan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında təqdir edilir və respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır. Əminliklə qeyd etmək olar ki, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət daha böyük uğurların əldə olunacağına gətirib çıxaracaq.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***